# KİV-in məktəbəqədər yaşlı uşaqların emosional inkişafına təsiri

**Sevinc İsmayılova**
Bakı şəhəri 211 nömrəli tam orta məktəbin psixoloqu
**E-mail:** ismayilovasevinc211@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol. ü.f.d. Ş.R. Babayeva

**Açar sözlər:** kütləvi informasiya vasitələri, məktəbəqədər yaş dövrü, psixi proseslər, aqressiv davranış
**Ключевые слова:** средства массовой информации, дошкольный возраст, психические процессы, агрессивное поведение
**Key words:** mass media, preschool age, mental processes, aggressive behavior

Dünyada informasiyanın əhəmiyyəti durmadan artır. Bu proses Azərbaycanda da sürətlə gedir. Yaşadığımız XXI əsr kəskin ziddiyyətləri ilə zəngin olub, qarışıq "mədəni dünya"nı, mənəvi çirkabları və böhranları özündə təcəssüm etdirməkdədir.

Zahirən bəzəkli görünən bu dünya amansız qanunları ilə maraqlar və iddialar üzərində qurulmaqla yanaşı, mənəvi dəyərlərin deqradasiyasına da səbəb olmaqdadır. Təəssüf ki, bu deqradasiyanın katalizatoru gündəlik həyatımızı bir an belə onsuz təsəvvür etmədiyimiz media - mətbuat, televiziya, radio və internetdir. KİV bütünlüklə ayrı bir dünyadır və bu dünya öz sosial-psixoloji yönləndirmə mahiyyəti ilə əvəzedilməz və müqayisəyəgəlməz dərəcədə böyük təsir gücünə malikdir. Çünki onsuz həyatın hansı istiqamətə axın edəcəyini müəyyənləşdirmək qeyri-mümkündür. Lakin gəlin bir anlıq təsəvvür edək: nəinki gündəlik iş rejiminə, hətta insanların şüuruna və bilavasitə şəxsiyyət kimi inkişafına birbaşa təsir etmək gücünə malik KİV, düzgünlük, vətənpərvərlik, demokratiya və insan hüquqlarına hörmət etmək əvəzinə, zorakılığı, milli diskriminasiyanı, cəmiyyətin bir çox eybəcərliklərini qabardır və bir növ bu eybəcərliklərin təbliğatçısına çevrilir. O zaman istər cəmiyyətin, istərsə də ayrı-ayrı fərdlərin müsbət yöndə inkişafından danışmağa dəyməz.

Kütləvi informasiya vasitələri (KİV) – informasiyanın kütləyə çatdırılması vasitəsi olub müasir sivilizasiyanın ən xarakterik cəhətlərindən biridir. Kütləvi informasiya vasitələrinin köməyi ilə insanlar qısa bir zamanda dünyada baş verənlər haqqında məlumat ala bilirlər. Kütləvi informasiya vasitələri özündə əsasən qəzetləri, jurnalları, radio və televiziyanı cəmləşdirir. Kütləvi kommunikasiya anlayış baxımından bir şəxs və ya bir qrup insan tərəfindən yaranan ötürücü cihaz (medium) vasitəsilə böyük bir auditoriyaya göndərilən ismarıcdır. Kütləvi informasiya vasitələri isə kütləvi kommunikasiyanı ötürmək üçün istənilən mediumdur. Dövrümüzə qədər kütləvi informasiya vasitələri müəyyən edilmiş və səkkiz KİV industriyası tərəfindən təşkil olunmuşdur: kitab, qəzet, jurnal və səsyazmalar, radio, kino, televiziya və internet [1].

KİV-in insan psixologiyasına emosional təsiri haqda müasir psixologiyada maraqlı faktlar mövcuddur. Məqalədə KİV-in məqtəbəqədər yaşlı uşaqların emosional inkişafına təsiri haqda tədqiqat xarakterli nüanslara toxunacağıq.

Məktəbəqədər yaş dövrü uşağın həm fiziki, həm psixofizioloji, həm də şəxsiyyət sahəsində inkişafının keyfiyyətcə dönüş dövrüdür. Bu dövrdə birinci növbədə diqqəti uşağın

fiziki inkişafı cəlb edir. 3-6 yaşlı uşağın boyunun, çəkisinin artmasında nəzərə çarpacaq dəyişiklik baş verir. Bununla yanaşı olaraq nitqin, böyüklərlə, həmyaşıdları ilə ünsiyyətin və müxtəlif fəaliyyət növlərinə cəlb olunmanın təsiri altında uşaqda yeni keyfiyyət dəyişmələri baş verir. Bütün bunlar uşağın sosial şəraitə və həyatın tələblərinə uyğunlaşmasına imkan verir. Məktəbəqədər dövr uşağın fəaliyyətin subyekti kimi formalaşmasının ilkin mərhələsi kimi özünü göstərir. Bu dövrdə məqsədyönəlişliyin əsası qoyulur. Böyüklərin qiymətləndirməsi və nəzarətinin təsiri altında bağça yaşının sonunda uşaqlar öz hərəkət və fəaliyyətlərindəki qüsurları hiss etməyə başlayırlar [2, 516].

Elmə məlumdur ki, şəxsiyyət sosiumdan kənarda inkişaf edə bilməz, kommunikasiya prosesi sosiumun mərkəzində olan anlayışlardandır. Xüsusilə bu, kütləvi informasiya vasitələrinə aiddir, ələlxüsus da televiziya şəxsiyyətin formalaşmasına böyük təsir göstərir və vaxtın əksər hissəsini əhatə edir. Məktəbəqədər yaşlılar da bu təsirdən kənarda qalmır. Məktəbəqədər yaşlıların əksəriyyəti hər hansı populyar verilişin aparıcısının və ya sevdiyi kino qəhrəmanının davranış maneralarını, reklam çarxını asanlıqla imitasiya edə bilir. Lakin onlar bu zaman külli miqdarda neqativ informasiya mənimsəyir və bunları davranışında əks etdirir.

Kütləvi informasiya vasitələrinin uşaqlara dağıdıcı təsirini ilk növbədə onların valideynləri və məktəbəqədər müəssisələrin tərbiyəçiləri hiss edir. Bəllidir ki, valideynlər məktəbəqədər yaşlının tərbiyəsi və psixi inkişafında böyük rol oynayır, lakin onlar televiziya fenomeninin uşaq şəxsiyyətinə neqativ təsirinin qarşısının alınmasında çətinlik çəkir və KİV-in mənfi təsirilə meydana çıxan uşaq aqressiyasının psixoterapiyasında psixoloji dəstəyə ehtiyac duyur.

Məktəbəqədər yaşda diqqət qeyri-ixtiyari xarakter kəsb edir, lakin tədricən ixtiyari xarakter alır. Zaman keçdikcə məktəbəqədər yaşlılar diqqəti idarə etməyi və müəyyən obyektlərə yönləndirməyi öyrənir. Artıq məktəbəqədər yaşın sonunda – altı yaşa doğru uşağın ixtiyari diqqət imkanları genişlənir. Bu dövrdə məktəbəqədər yaşlının diqqətinin daha çox formalaşdığı və yönəldiyi obyekt kütləvi informasiya vasitələri olur. Nəzərə alsaq ki, müasir dövrdə KİV insan həyatında önəmli rola malikdir, onun həm pozitiv, həm də neqativ təsirlərinə məruz qalır, bu, uşaqlara da emosional təsirdən yan keçmir.

Müasir dövrdə uşaqlar və KİV günün ən vacib məsələsi kimi ortaya çıxmaqdadır. Əgər uşaqların tərbiyəsi ilə əvvəllər valideynlər məşğul olurdularsa, indi ifrat dərəcədə məşğul olduqlarından bu funksiyanı televiziya və digər kütləvi informasiya vasitələri öz üzərinə götürmüşdür. Televiziya, kompyuter artıq çoxdandır ki, məktəbəqədər yaşlıların, onların ömrünün ilk illərindən həyatlarının ayrılmaz hissəsinə çevrilib. Praktik olaraq bütün ailələrdə uşaqlar oturmağı öyrənən kimi, dərhal onu televiziya ekranının qarşısında əyləşdirirlər, bu isə, uşaqların böyüklərlə canlı ünsiyyətinin qarşısını alır və ya onu əvəzləyir. Uşağın ekran qarşısında oturması hamıya "sərf edir", xüsusilə də valideynlərə: ekran qarşısında başı qarışan uşaq kapriz göstərmir, xuliqanlıq etmir, təhlükəsiz şəraitdə olur və eyni zamanda müxtəlif təəssüratlar əldə edir, yeni şeylər öyrənir. Bir çox hallarda isə valideynlər televiziya verilişlərinin nümayişində və kompyuter oyunlarında uşaqlarla birgə aktiv iştirak etmir, bu isə, acı nəticələr yaradır: uşağın psixi inkişafı pozulur, eyni zamanda sağlamlığı ciddi ziyan görür, görmə prosesi pozulur, ətalətlilik və hərəkət azlığı meydana çıxır.

KİV-in uşaqlara neqativ təsirləri içərisində əvvəllər televiziya daha çox yer alırdısa, indi kompyuter bu təsirləri yayan, artıran ilkin KİV vasitəsinə çevrilib. Son zamanlar kompyuterin uşaq psixikasına neqativ təsiri əhəmiyyətli şəkildə artmışdır. Psixoloji tədqiqatlara görə, son dövrlərdə məktəbəqədər yaşlı uşaqlarda psixi inkişafda geriləmə müşahidə olunur [3, 50]. Belə ki, məktəbəqədər yaşlı nitqə gec yiyələnir, az və pis danışır, onların lüğət ehtiyatı

primitiv xarakter daşıyır və zəngin olmur.

Uşaq psixikası həssaslığı ilə fərqlənir. Kompyuter oyunlarında uşaqlara ötürülən qorxu və təhlükə hissi onlarda nevrotik simptomlar yaradır. Təcavüz, müharibə, döyüş səhnələri, ölüm, insana qəsd kadrlarının nümayişi uşaq davranışında dəyişikliklər yaradır. Bəzən bu nevrotik simptomlar uşaqları yuxu halında narahat edir, uşaq həyəcanını artırır [3, 51].

Psixoloqlar belə hesab edirlər ki, KİV-in uşaq psixikasına göstərdiyi emosional təsirlərin nəticəsi kimi meydana çıxan ən mühüm faktorlardan biri aqressiv davranışın adət halı almasıdır [6]. Müəyyən olunmuşdur ki, təcavüz, başqa adamlara zor, fiziki qüvvə tətbiq etmə səhnələrinin ardıcıl müşahidəsi məktəbəqədər yaşlarda qəddarlığın inkişafına səbəb olur. Əgər uşaq ardıcıl olaraq müəyyən vaxt təcavüz dolu səhnələr görürsə, bir müddət sonra onu real vəziyyət kimi qəbul edir. Bir çox psixoloqlar belə hesab edirlər ki, bu mərhələdə aqressiv davranış formalaşır. Sosiuma düşən, sosial çevrəyə daxil olan uşaq kompyuter ekranında müşahidə etdiyi aqressiya metodlarını tətbiq etməyə başlayır.

Müasir dövrdə uşağı KİV-in neqativ təsirindən tamamilə qorumaq mümkün deyildir. Lakin mütəxəssislər tərəfindən bu neqativ təsirləri azaldan metodlar hər zaman axtarılır.

KİV-in uşaq psixikasına emosional təsirini araşdıran tədqiqatçılar ilk növbədə aşagıdakıları tövsiyə edir:

1.Uşağa real dünyanı kompyuter oyunları zamanı ekranda gördüyü çirkab dolu dünyadan fərqləndirməyi öyrətmək vacibdir.

2.Televiziya və ya kompyuterin uşağın dostuna çevrilməsinə imkan verilməməlidir.

3. Televiziya və ya kompyuter uşaq əyləncələrini, uşaq gəzintisini əvəz etməməlidir.

4. Uşaqlarda kitab oxumağa motivasiya yaradılmalıdır.

Bu tövsiyələri reallaşdırmaq üçün uşağın televiziya və ya kompyuter arxasında keçirdiyi vaxtı nəzarətdə saxlamaq və məhdudlaşdırmaq vacibdir.

KİV-in uşaq psixikasına neqativ emosional təsirini aradan qaldıran ən effektli yol valideyn ünsiyyətidir. Valideynlər uşaqlarına daha çox vaxt ayırarlarsa, KİV-in uşaq psixikasına sarsıdıcı təsirlərinin zəifləməsinə nail olarlar.

KİV-in məktəbəqədər yaşlı uşaqlara emosional təsirinin neqativ aspektlərini göstərən bir tədqiqatın nəticələri maraq doğurur. Tədqiqat V.İ. İlyasova tərəfindən 2016-cı ildə Rusiyada aparılmışdır [4, 108-109]. Əslində tədqiqat 1980-2015-ci illəri əhatə etmiş, nəticələr kontent-analiz metodu vasitəsilə müəyyənləşdirilmişdir. Tədqiqatın keçirildiyi dövr iki mərhələyə ayrılmışdır:

1. 1980-1990-cı illər;

2. 1991-ci ildən 2015-ci ilədək.

Tədqiqat prosesində 40 cizgi filmindən 101 personaj götürülmüşdür. Bunlardan 53-ü birinci, 48-i ikinci mərhələyə aiddir. Kontent analizin sxemlərində iki parametr nəzərə alınmışdır:

1. Personajın məqsədi;

2. Məqsədin həyata keçirilməsində personajın istifadə etdiyi vasitələr.

Personajların obrazlarının modallığı aşağıdakı cədvəldə verilir:

| Dövrlər | Müsbət personajlar | Mənfi personajlar |
|---|---|---|
| 1991-ci ilədək | 62,3% | 37,7% |
| 1991-ci ildən sonra | 56,3% | 43,7% |

Tədqiqatın nəticələri məktəbəqədər yaşlı uşaqlarda uşaq cizgi qəhrəmanları obrazlarının

dəyişilməsi haqda təəssürat yaratdı. Məlum oldu ki, uşaqların seçdiyi personajların xarakterində əhəmiyyətli və ciddi dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər özünü daha çox uşaq cizgi filmi qəhrəmanlarının məqsədə nail olma vasitələrində göstərir [4, 109]. Əgər cizgi filmlərinin uşaq sosiallaşmasında və tərbiyəsində mühüm vasitə olduğunu nəzərə alsaq, bu tendensiyanın valideynlər və tərbiyəçilər tərəfindən nəzərə alınmasının vacibliyini anlamış olarıq.

Tədqiqat göstərdi ki, son 30 ildə məktəbəqədər yaşlıların idealları, sərvət dəyərləri köklü dəyişikliyə uğramışdır. İndi onların qəhrəmanları məsumiyyəti və saflığı ilə deyil, aqressiya və məqsədəyönəlişliyi ilə fərqlənir. İndi onların seçdiyi qəhrəmanların hədəfə çatmaq uğrunda göstərdiyi savaşda başqa adamın həyatına sui-qəsd, acımadan qəddarlıq göstərmək, məqsədə çatmaq üçün ətrafdakıların mənafeyini düşünməyərək bütün vasitələrin tətbiqi əsas yer tutur. Bu elmi fakt Azərbaycan şəraitində də aktuallığını itirməmişdir. Təəssüf ki, indi məktəbəqədər yaşlıların qəhrəmanları səliqəli, itaətkar, zəhmətkeş, həm zahiri, həm də daxili gözəllikləri özündə birləşdirən Göyçək Fatimə, Məlikməmməd və başqa müsbət nağıl qəhrəmanları deyil, ifrat təcavüzkar davranış sərgiləyən super-Men, ətrafına neqativ enerji ötürən bad-Men, qəddarlığı ilə çevrəsini üzən Maşa və başqalarıdır.

Psixoloqlar KİV-i məktəbəqədər yaşlı uşaqların həyatından tamamilə çıxarmağın əleyhinədir. Çünki bu, mümkün olmayan bir faktdır. Eyni zamanda ətraf mühit və mənəvi dəyərlər haqda bir çox televerilişlər və kompyuter oyunları mövcuddur. Əgər KİV-in uşaq həyatına müdaxiləsinə nəzarət edə bilsək, onun neqativ təsirlərindən uşaqları qorumuş olarıq. Məktəbəqədər yaşlı uşaqların KİV-dən düzgün istifadəsi lazımi və vacib informasiyanın əldə olunmasına gətirib çıxarır, əks təqdirdə KİV uşaq ruhunu tamamilə istila və asılı edir.

Məqaləni yazıçı Ester Selsdonun sözləri ilə bitirmək məqsədəuyğun olardı: "Əgər yaxşı uşaqlar yetişdirmək istəyirsinizsə, onlara iki dəfə az pul, iki dəfə isə çox zaman sərf edin" [6].

**Məqalənin aktuallığı.** Kütləvi informasiya vasitələri (KİV) – informasiyanın kütləyə çatdırılması vasitəsi olub müasir sivilizasiyanın ən xarakterik cəhətlərindən biridir. KİV-in insan psixologiyasına emosional təsiri haqda müasir psixologiyada maraqlı faktlar mövcuddur. Bu gün Azərbaycanda insanların əksəriyyəti KİV-in neqativ təsirinə məruz qalır, müxtəlif xarakterli psixoloji asılılıqlar yaşamaqdadır. Ən çox da bundan əziyyət çəkənlər uşaqlar, şagirdlər və tələbələrdir. Mütəxəssislər problemin mahiyyətini araşdırmaqla yanaşı, onun aradan qaldırılma yollarını da üzə çıxarmağa çalışırlar. Lakin önəmli məqamı gözdən qaçırırlar: bilmədiyiniz hər nə isə onunla mübarizə aparmaq daha çətindir, hətta həmən-həmən imkansızdır. Problemin kökünü anlamadan onu sadəcə bir müddətlik aradan qaldırmaq mümkün ola bilər. Mövzunun aktuallığını qoruyan məhz bu anlayışlara fərqli prizmadan baxışların mövcudluğudur, çünki müxtəlif yanaşmalar müxtəlif həll yollarının tapılmasına vəsilə olur.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat işində KİV-in uşaq psixikasına emosional təsirinin nəzəri və sosial aspektləri araşdırılmış, KİV-in uşaq psixikasına psixoloji təsirinin müsbət və neqativ tərəfləri müəyyənləşdirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat işində əldə olunan nəticələr praktik psixologiya sahəsində təcrübi əhəmiyyət kəsb edir, məktəbəqədər yaşlı uşaqlarla iş təcrübəsində tətbiq oluna bilər.

## Ədəbiyyat

1. Kütləvi informasiya vasitələri. Vikipediya, açıq ensiklopediya.

2. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik / Prof. S.İ. Seyidov və prof. M.Ə. Həmzəyevin elmi redaktorluğu ilə. Bakı, 2007.

3.Дроздов О.Ю. Массовая коммуникация как фактор агрессивного поведения // Вестник Харьковского университета. Серия «Психология». 2000, № 483.

4. Ильясова В.И. Влияние телевидения и средства массовой информации на детей дошколъного возраста // «Символ науки», 2016, № 4.

5. Труфанова В.П. Влияние средства массовой информации на развитие ичности ребенка // Научное сообщество студентов XXI столетия. ГУМАНИТАРНЫЕ НАУКИ: сб. ст. по мат. XVII междунар. студ. науч.-практ. конф. № 2 (17).

6. http://www.detsad-lukomor.ru.

**С. Исмаилова**

## Влияние средств массовой информации на эмоциональное развитие детей дошкольного возраста

## Резюме

СМИ — один из самых характерных аспектов современной цивилизации, который является средством информирования общественности. В современной психологии есть интересные факты об эмоциональном воздействии средств массовой информации на психологию человека. Сегодня большинство людей в Азербайджане подвергаются негативному воздействию СМИ, испытывая различные психологические зависимости. Большинство из этих детей - дети, студенты и студенты. Эксперты исследуют суть проблемы и пытаются разоблачить пути ее устранения. Но они упускают важный момент: с чем-либо, с чем вы не знаете, сложнее бороться, даже если это невозможно. Это можно устранить просто на некоторое время, не понимая корень проблемы. Основной темой этой темы является то, что взгляды отличаются от призмы, потому что разные подходы могут привести к различным решениям.

**S. Ismailova**

## Influence of mass media on emotional development of preschool children

## Summary

Media (Mass Media) is one of the most characteristic aspects of contemporary civilization, which is the means of informing the public. There are interesting facts in modern psychology about the emotional impact of media on human psychology. Today, the majority of people in Azerbaijan are exposed to the negative impact of the media, experiencing different psychological dependencies. Anything you do not know is more difficult to fight with, even if it is impossible. It is possible to eliminate it simply for a while without understanding the root of the problem. The main point of the topic is that the views are different from the prism, because different approaches can lead to different solutions.